**Xəlqi kolorit və milli mentalitetin ifadəçisi olan şifahi xalq yaradıcılığı "folklor tülünə" nə qədər bürünsə də ilkinliyin, gerçəkliyin əlamətlərini özündə ehtiva edir. Xalqın yaratdığı folklor mətnlərindən ulu keçmişimiz, tariximiz də keçir. Ən kiçik folklor örnəyindən tutmuş irihəcmli epos mətninə qədər bütün səviyyələrdə Azərbaycan folkloru xalqın ruhunu, dilini, tarixi keçmişini, onun mənəvi güc və qüdrətini özündə inikas etdirir (3. s. 36).**

# Bəzi epos, əfsanə və rəvayətlərə tarixi baxış

**Dastan "etnosun varlığından, keçib gəldiyi yolundan, ümumi şəkildə etiketindən xəbər verir. Etnosun kimliyini tanımaq da, məşğuliyyətini bildirmək də ölçüyəsığmaz dəyər daşıyır" (1, s. 3).**

"Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan türklərinin şifahi yaradıcılığı ilə yanaşı, etnik mədəniyyəti və tarixinin öyrənilməsində əvəzsiz mənbədir. "Təbii ki, tarix elmində bu qiymətli ilk mənbənin yarandığı tarixi şərait və tarixi məkan barədə də tutarlı bir araşdırma aparılmayıb, aydınlıq yaradılmayıb" (6, s. 19).

Bu sətirlərin müəllifi tanınmış tarixçi alim Y.Mahmudov yazır ki, "Kitabi-Dədə Qorqud"a üz tutan alimlərin əksəriyyəti oğuzçuluğu Azərbaycana "gəlmə" hesab edir, tarixi keçmiş olduğu kimi təqdim edilmir, əsas tarix kölgədə qalır. Real tarix isə bundan ibarətdir ki, Azərbaycan əski dövrlərdən ümumtürk məkanının tərkib hissəsi olub, böyük türk dünyasının şimalını cənubu ilə, şərqini qərbi ilə birləşdirən körpü rolunu oynayıb (6, s. 19-20).

Vaxtilə prof. M. H. Təhmasib yazırdı ki, Qafqazda oğuzçuluğun tarixi təqribən e. ə. II minilliyin ortalarından məlumdur (9, s. 14). Bizim eradan sonrakı əsrlərdə Orta Asiyadan gələn Oğuz tayfaları Azərbaycanda eramızdan çox əvvəllər yaşamış oğuzların yeni nəsillərilə rastlaşmış, onlarla müəyyən mənada qaynayıb-qarışmışlar.

"Qədim türklərin, o cümlədən oğuzların ən qədim və aramsız oturaq məkanı məhz bu region-gözəl iqlimi, səfalı yaylaqları və qışlaqları olan Qafqaz (şimallı-cənublu) regionu olduğu üçün elə bu regionda da ümumtürk mədəniyyəti daha erkən formalaşmağa başlamışdır. Sonralar islam dini bu prosesdə çox mühüm (birləşdirici, qaynayıb-qarışmaya yol açan amil) rol oynamışdır.

Nəticədə böyük bir regionda-tarixi Azərbaycan ərazisində çoxsaylı və böyük türk toplumlarının hamısının bir-birini asanlıqla başa düşdüyü ümumtürk danışıq dili formalaşmış, türkün min illər boyunca yaratdığı və yaşatdığı xalq ədəbiyyatı nümunələrinin-"Kitabi-Dədə Qorqud" boylarının vahid dastan halında təşəkkülü prosesi başa çatmışdır (6, s. 21).

"Kitabi-Dədə Qorqud" boylarından "Uşun Qoca oğlu Səkrək" boyundakı hadisələr Naxçıvan bölgəsilə çox sıx bağlıdır. Boyda "qara donlu kafirlər" Əkrəklə Səkrəyi vuruşdurmağa cəhd edir və xəyanət yolu ilə qardaşı qardaşa (türkü türkə) öldürtmək istəyirlər.

Nəzərdən qaçırmaq olmaz ki, "etnik xarakter etnik simanı müəyyən edən mühüm göstəricilərdən biridir" (2, s. 45). "Oğuzların etnik siması aydındır. Onlar mənəvi-psixoloji cəhətdən də cəsur, igid, qorxmaz, çalışqan, qarşıya qoyduqları məqsədə çatmaqda inadkar və qətiyyətlidirlər" (2, s. 46). Son araşdırmalar Urmiya gölü ətrafında turukki, su tayfaları ilə yanaşı, hun və oğuzların m. ö. III minilliyin əvvəllərindən kuti və lullubi (prototürk) qəbilə birliklərinin tərkibində yaşamış olduqlarını göstərir.

Aratta dövlətinin varisi kimi meydana gəlmiş Lullibi və Kuti dövlətləri uzun bir tarixi mərhələdən sonra e. ə. III minilliyin sonunda süquta uğrayıb xırda vilayətlərə bölündü. Bundan sonra e. ə. I minilliyin əvvəlində Cənubi Azərbaycan ərazisində Manna dövləti yarandı. Daha çox yerli türkdilli qəbilələrin təsərrüfat, eləcə də siyasi və mədəni həyatlarında əhəmiyyətli rol oynamış bu dövlət e. ə. VIII əsrin ortalarında artıq bütün Cənubi Azərbaycanı əhatə edirdi. M. ö. III-II minilliklərdə Urmiya gölü ətrafında yaşayan prototürklərdən bəhs edən görkəmli alim Y. Yusifov Manna dövlətinin "mannalılar ölkəsi" adlandığını qeyd edir.

Alimin qənaətincə "mannalı" anlayışı etnik cəhətdən qohum etnosların yığcam adı imiş. Yəqin ki, bu etnos hələ Aratta dövründə burada yaşayırmış və ölkə onun dilində işlənən söz ilə Aratta/Alateye, yəni "dağlıq ölkə" adlanmışdı. Bu ölkə prototürk dilinə mənsub idi" (10, s. 305). Naxçıvanda xalqımızın etnik tarixi mənşəyilə yaxından səsləşən belə əfsanələr var. Bunlardan birində deyilir:

"Ərəs əhli bir tayfa idi ki, onlar sənubər ağacına pərəstiş edirdilər. Bu ağacı burada Nuh üçün yaranmış Ərəs çeşməsi kənarında Nuhun oğlu Yafəs əkmişdir. Onların şərq tərəfindəki şəhərlərinin birisindən keçən Rəs çayı ətrafında 12 şəhərləri var idi. Bu həmin çaydır ki, onu indiki zamanda Ərəs adlandırırlar. O vaxt dünyada bu çaydan dolu, şirin sulu bir çay və nə də onların şəhərlərindən böyük və gözəl binalı bir şəhər var idi. Onların müqəddəs saydığı sənubər ağacı paytaxtları olan İsfənd şəhərində idi. Sonralar bütün on bir şəhərin əhalisi Ərəs çeşməsindən qol ayırmış və sənubər ağacının toxumundan aparıb öz şəhərlərində əkmişlər" (7, s. 93).

XVIII əsr müəllifi Axund Molla Bağır Məclisinin "Həyatül-qülüb" əsərinə əsasən prof. M. Seyidov yazır ki, Azərbaycan türklərinin xalq kimi formalaşmasında iştirak etmiş Ərəs tayfası odla yanası, sənubər ağacına da sitayiş edirmişlər (7, s. 94). Əfsanədə mifik düşüncədən çox gerçək tarixi-coğrafi bağlılıq vardır. Ərəs əhlinin yaşadığı şəhərin ortasından keçən Araz çayının ətrafında olan 12 şəhərdən, onların da gözəl və böyüklüyündən söz açılması, doğrudan da, maraq doğurur. Məlumdur ki, orta əsrlərdə bəzi səyyah və tarixçilər də Naxçıvan şəhərinin gözəlliyindən ürəkdolusu çox söz açmışlar. Araz çayının sağ və sol tərəflərindəki şəhərlərin də sayı yuxarıda qeyd olunan rəqəmlə uyğun gəlir: Naxçıvan, Qarabağlar, Şərur, Culfa, Ölən şəhər, Azadciran, Ordubad, İsfənd (Üstüpü), Ələmdar, Gərgər, Xoy, Maku və s.

Tarixi-coğrafi cəhətdən Naxçıvanla bağlı olan "Əshabu-kəhf" mağarası da ibtidai insan sığınacağı olub. Mağaranın hündür qaya və daşlarındakı od-tüstü qalıqları da bunu göstərir. Belə ehtimal etdiyimiz mağaranın haqqında Quranın 18-ci "Əl-kəhf" surəsində də məlumat verilib.

"Maraqlıdır ki, miladdan əvvəl 12-ci əsrdən miladın 2-ci əsrinə qədər olan müxtəlif xarakterli hekayələrin məcmusundan ibarət olan Tövratda "Əshabü-kəhf" barədə məlumat verilmişdir"(4, s.62). "Əshabü-kəhf" əfsanəsindəki Dəqyunis padşah kimdir? Bu suala cavab axtaran akademik B. Budaqov və professor Q.Qeybullayev yazır: "Azərbaycanın bəzi tarixçiləri iddia edirlər ki, bu, miladi 284-305-ci illər arasında Roma hökmdarı olmuş Diokletian Qay Avreli ola bilər. Çünki o, xristianları sıxışdırmağa başlamışdır.

Lakin apardığımız axtarışlar nəticəsində məlum olmuşdur ki, Dəqyunis təqribən miladi 205-251-ci illər arasında yaşamış və miladi 249-cu ildən Roma imperatoru olmuş Desi Qay Messi Kvin Trayandır. Desi həqiqətən imperiya ərazisinin hər yerində ilk dəfə xristianları təqib etməyə başlamışdır. Nəhayət, 251-ci ildə qatlarla, yəni qədim German tayfaları ilə vuruşmada həlak olmuşdur.

Yeniyetmə cavanmərdlər həmin imperatorun zülmündən və təqibindən yaxa qurtarmaq üçün qaçıb Naxçıvandakı mağarada sığınacaq tapmışdılar. Quranın "Əl-kəhf" surəsindəki Makedoniyalı İsgəndərin (miladdan qabaq 336-323-cü illərdə hökmranlıq etmişdir) Dərbənddə dəmir qapı saldırması hadisəsi "Əshabü-kəhf" hadisəsindən sonra şərh edilmişdir. Bundan qabaq həmin hadisə Tövratda da qeyd edilmişdir.

Deməli, cavanmərdlər mağaraya islamiyyət dövründə deyil, Məhəmməd peyğəmbər anadan olandan təqribən 320 il qabaq sığınmışdılar. Quranda qeyd edildiyi kimi, onların 300 il mağarada yuxuya getmələrini nəzərə alsaq, mərd cavanlar Məhəmməd peyğəmbər anadan olandan 11 il qabaq Allah tərəfindən behiştə aparılmışlar"(4, s. 62, 63). Naxçıvan bölgəsinin Zoğala, Xaraba Gilan, Ölən şəhər yerləri, Əlincəqala ilə bağlı yaranmış rəvayətlərdə də tarixi keçmişlə səsləşən məqamlar vardır. Bəzi rəvayətlərdə Ordubad şəhəri və Dəstə kəndinin yaranmasından danışılır.

Bir qrup rəvayətlərdə Əlincəçay və Gilançayın yuxarı bölgəsində Dəmirçi, Məzrə, Berdik, Köhnə Paradaş, Babalar, Tillək adlı dağılmış kəndlərdən bəhs olunur. Təbii ki, tarixin izlərini yaşadan belə yerlərdə aparılmış arxeoloji qazıntılar müsbət nəticələr verir. Lakin müəyyən vaxtlarda bölgənin tarix və mədəniyyətinə xəyanət gözü ilə baxanlar da olub. 1926-cı ildə Naxçıvanın Qızılvəng stansiyası yaxınlığında arxeoloqların aşkar etdikləri daşüstü yazıda Naxçıvan ərazisinin Atropatakan, yəni qədim Azərbaycan ərazisi olduğu göstərilirdi. Həmin yazı sonralar yoxa çıxmışdır (8, s. 17).

Görünür, bu tapıntı ekspedisiya rəhbərlərinin ürəyincə olmayıb. Azərbaycanı "öyrənmək" adı ilə qazıntı aparan ekspedisiyanın tərkibində erməni-pə-

rəst münasibətdə olan qeyri-azərbaycanlı tədqiqatçılar olub. Onlar da üzərində yazı olan daş abidəni özlərinə münasib yerlərdən hansınasa aparıblar. Bunlara baxmayaraq, 1927-1928-ci ildə aparılmış ekspedisiyalar Araz çayı boyu, Culfa və onun Əlincəçay vadisindəki Xanağa və Ordubadın Xaraba Gilan ərazilərində ilk şəhər mədəniyyətini aşkar etdi (8, s. 17-18). O. Həbibullayev isə 1951-1964-cü illərdə apardığı elmi-arxeoloji araşdırma nəticəsində Naxçıvanın Kültəpə yaşayış yerinin 7 minillik yaşı olduğunu müəyyən etdi (5, s. 25, 45).

**Beləliklə, ilkinliyi, qədimliyi göstərən tarix onun mənsub olduğu xalqın folklorunda da özünü büruzə verir. Bunu folklor abidələrinə olan tarixi baxış deməyə əsas verir. Folkloru qədim olan xalqın tarixi də qədim və zəngindir. Doğrudan da, yuxarıda nəzərdən keçirilən bəzi epos, əfsanə, xüsusən rəvayət örnəkləri Naxçıvan tarixinin uzaq keçmişilə bağlı müəyyən məqamları, onların iz və əlamətlərini özündə qoruyub saxlamış dəyərli mənbələrdən biridir.**

**Yusif SƏFƏROV,**
*filologiya elmləri doktoru*

## Ədəbiyyat

1. Abdulla B. Salur Qazan (tarix, yoxsa mif...), Bakı, 2005.
2. Acaloğlu A. Ön söz. Azərbaycan mifoloji mətnləri. Bakı. 1988.
3. Azərbaycan ədəbiyyatı tarixi, I c., Bakı, 2004.
4. Budaqov B., Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı. Bakı, 2004.
5. Həbibullayev O. Kültəpədə arxeoloji qazıntılar. Bakı, 1959.
6. Mahmudov Y. "Dədə Qorqud kitabı"-xalqın yaratdığı və yaşatdığı tarix, Dədə Qorqud dünyası. Məqalələr, Bakı, 2004.
7. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları, Bakı. 1983.
8. Səfərov Y. Qədim Azərbaycan: nə bilirik. Bakı. 1989.
9. Təhmasib M. Bir tarixi həqiqətin eposdakı izləri, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, 6-cı k., Bakı, 1981.
10. Yusifov Y. Qədim Şərq tarixi, Bakı, 199.